Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 200 (1328) 28 oktyabr - 31 oktyabr 2016-cı il

# İNDİ GÖYÇAYDA BÜTÜN MƏSƏLƏLƏRİN ANA XƏTTİ YALNIZ YÜKSƏLİŞDƏN KEÇİR

(əvvəli ötən saylarımızda)

**Stadionda yeni işıqlandırma sistemi və monitor quraşdırılmış, idman obyektinin sanitar texniki qovşaqları, tribunadakı oturacaqlar yenilənmişdir. Şəhərin Natavan küçəsindəki yol dairələri abadlaşdırılmış, şəhər 9 saylı tam orta məktəbin dam örtüyü əsaslı təmir olunmuşdur. Şəhər dindarlarının müraciəti nəzərə alınaraq "Yuxarı məscid"də təmir işləri aparılmış və məscidin ərazisi abadlaşdırılmışdır. Şəhərin park və xiyabanlarının, mövcud bağların abadlaşdırılması istiqamətində də xeyli işlər görülmüş, Ə.-Kərim adına park və şəhidlər xiyabanında lazımi səliqə-səhman yaradılmış, şəhərin bir çox küçələrində yeni çəmənliklər salınmışdır. Şəhər sakinlərinin çoxsaylı müraciətləri nəzərə alınaraq şəhərin mərkəzində sanitar qovşağı inşa edilmiş və 1 ədəd bio-qovşaq quraşdırılmışdır. Kənd yaşayış məntəqələrində də abadlıq, quruculuq işlərinin aparılması, əhalini narahat edən problemlərin aradan qaldırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür.**

2016-cı ilin iyun ayının 12-də baş vermiş sel zamanı Aşağı Qaraməryəm kəndində Dəvə batan çayı üzərindəki dağılmış körpü yenidən tikilərək kənd sakinlərinin istifadəsinə verilmişdir. Şamaxı-Yevlax respublika əhəmiyyətli avtomobil yolunun Qaraməryəm kəndinin ərazisindən keçən hissəsindəki yol dairələri abadlaşdırılmış, kənddəki bayraq meydanı əsaslı yenidən qurulmuşdur. Rayonun Çərəkə və Qaraman kəndlərində Qarabağ müharibəsi əlilləri üçün 3 və 2 mənzilli fərdi yaşayış evləri istifadəyə verilmiş, Mallı-şıxlı kənd tam orta məktəbi əsaslı təmir edilmiş, Yeniarx kənd uşaq bağçasında, Potu kənd həkim məntəqəsində cari təmir işləri aparılmışdır.

> **"... Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir, daxildə proseslər müsbət istiqamətdə getmişdir, islahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız ulu öndərin siyasi xəttinə sadiqik, bu xətti davam etdiririk".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

### *Sosial sahənin maddi texniki bazasının möhkəmləndirilməsi tədbirləri*

Sosial sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülmüş işlərə baxmayaraq bu sahədə xeyli problemlər mövcuddur. Xüsusən təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində xeyli işlər görülməlidir. Hazırda rayonun 57 ümumtəhsil məktəbindən 30-u uyğunlaşdırılmış binalarda yerləşir. Həmin məktəblərdən qəza vəziyyətində olan 5-i üçün yeni binalar tikilməli, 20 ümumtəhsil məktəbi əsaslı təmir olunmalıdır. Məktəbəqədər təhsil müəssisələrinin də mövcud vəziyyəti müasir tələblərə cavab vermir. Rayon icra hakimiyyəti başçısı aparatının müvafiq şöbələri, rayon təhsil şöbəsi yaxın illərdə birinci növbədə istismara yararsız vəziyyətdə olan Aşağı Qaraməryəm, Bığır 3 saylı, Potu kənd tam orta məktəbləri, şəhər 4 saylı, Qarabaqqal, Şəhadət və Məlikkənd kənd uşaq bağçaları üçün yeni binaların tikilməsi, şəhər 2, 6, 9 saylı, Ləkçıplaq kənd 1 saylı tam orta məktəblərin əsaslı təmir ounması üçün həm aidiyyəti orqanlar qarşısında məsələ qaldırmalı, həm də bu işlərin rayonun imkanları hesabına yerinə yetirilməsi üçün tədbirlər görməlidirlər.

Məlum olduğu kimi mərkəzi rayon xəstəxanası əsaslı yenidənqurulmadan sonra 2015-ci ildə istifadəyə verilmişdir. Burada xəstələrə numunəvi xidmət göstərmək üçün hər bir şərait yaradılmışdır.

Bütün bunlarla yanaşı rayon əhalisinə səhiyyə xidmətlərinin göstərilməsi səviyyəsi hələ də müasir tələblərə cavab vermir. Bəzi həkimlər tərəfindən öz vəzifə borclarını layiqincə yerinə yetirməmələri əhalinin müəyyən narazılığına səbəb olur. Azyaşlı uşaqların səhiyyə xidməti ilə əhatə olunması tələb olunan səviyyədə deyildir. 55 çarpayılıq Göyçay rayon uşaq xəstəxanası istifadəyə verildiyi vaxtdan bu günədək əsaslı təmir edilmədiyindən istismara yararsız vəziyyətə düşmüş, istilik sistemi, su-kanalizasiya, elektrik xətləri sıradan çıxmışdır. Xəstəxanada uşaqların diaqnostikası və müalicəsi, xəstəliklərin müayinəsi, cərraiyə əməliyyatlarının aparılması üçün normal şərait yoxdur. Mərkəzi rayon xəstəxanasının baş həkimi əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi üçün lazım olan bütün tədbirləri görməli, Göyçay rayon uşaq xəstəxanasının əsaslı təmir olunması üçün Səhiyyə Nazirliyi qarşısında məsələ qaldırmalı və problemin həllinə nail olmalıdır.

### *Vətəndaş müraciətlərinə həssas yanaşma*

Rayon icra hakimiyyətində və yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətlərinə baxılması, onların qəbulunun təşkili, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına, Prezident Administrasiyasının təlimat və tövsiyyələrinə uyğun təşkil edilib. 2016-cı ilin doqquz ayında vətəndaşlardan rayon icra hakimiyyətinə 862, o cümlədən Prezident Administrasiyasından 152 müraciət daxil olmuşdur. Daxil olmuş müraciətlərin ümumi sayı 2015-ci ilin müvafiq dövrünə nisbətən 253 vahid artsada, Prezident Administrasiyasından daxil olan müraciətlərin sayı 34 vahid azalmışdır. Daxil olan müraciətlərin 835 ərizə, 25-i şikayət, 2-i təklifdən ibarət olmuşdur. Aparılmış təhlillə müəyyən edilmişdir ki, vətəndaşlar daha çox fərdi torpaq, əkin sahələrinin və yolların zəbt



olunması, işlə və mənzillə təmin olunma, maddi yardım, yaşayış evlərinin və mənzillərin təmiri ilə bağlı məsələlərlə müraciət ediblər. Daxil olan müraciətlərin 111 vahidi müsbət, 23-ü qismən həll olunub, 23-ü əsassız hesab olunub, 656-na izahat verilmiş, 49 müraciət hazırda icraatdadır. Aparılmış təhlillərlə müəyyən edilmişdir ki, bəzi yerli icra və bələdiyyə orqanları tərəfindən vətəndaşları narahat edən məsələlər vaxtında öyrənilmir. Vətəndaş müraciətlərinə baxılmasına laqeydlik göstərilir, ərizə və şikayətlərin bilavasitə yerlərdə həlli üçün lazımi tədbirlər görülmür. Bütün bunların nəticəsidir ki, vətəndaşlar bilavasitə yerlərdə həlli mümkün olan məsələlərlə bağlı rayon icra hakimiyyətinə və yuxarı orqanlara müraciət etmək məcburiyyətində qalırlar.

"Vətəndaş müraciətlərinə haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən daxil olan müraciətlərə ən geci 30 iş günü müddətində baxılmalı olduğu halda bəzi icraçılar tərəfindən bu tələbin pozulmasına dair 4 fakt olmuş və gələcəkdə bu hallara yol verilməməsi üçün rayon icra hakimiyyəti başçısı tərəfindən vəzifəli şəxslərə iradlar bildirilmiş və müvafiq tövsiyyələr verilmişdir.

Hesabat dövründə əhalini narahat edən problem və çətinlikləri yerində öyrənmək və operativ həll etmək məqsədi ilə səyyar görüşlərin keçirilməsi praktikasından da geniş istifadə edilmişdir.

2016-cı ilin yanvar-sentyabr aylarında rayon icra hakimiyyəti başçısının 35 səyyar qəbulu keçirilmiş, səyyar qəbullarda 3120 nəfər iştirak etmişdir. Vətəndaşlar tərəfindən 173 təklif verilmiş, bunlardan 45-i barədə yerində izahat verilmiş, 68 məsələnin icrası təmin edilmiş, 60-nın icrası isə nəzarətdədir.

**(ardı var)**

***Məzahir ƏHMƏDZADƏ***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ